**İlahə Fərzalı qızı SƏFƏROVA**
Qərbi Kaspi Universiteti, Pedaqogika, psixologiya və sosiologiya
kafedrası, magistrant
E-mail: ilahsfrova@gmail.com

# BAĞLILIQ VƏ SOSİALLAŞMA ARASINDAKI ƏLAQƏYƏ NEUFELD YANAŞMASI

**Xülasə**

Uşağın sosiallaşmasında, sosial münasibətlərə daxil olmasında ailənin rolu əvəzedilməzdir. Əgər uşaq valideynləri ilə sağlam bağlılıq münasibətləri qurmuşsa, bu onun sosial münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Gordon Neufeld uşaqların sosiumla münasibətində bağlılığın rolu haqqında araşdırmalar aparır, bağlılığın uşağın həyatında rolunu təhlil edir və maraqlı nəticələr əldə edir. Xüsusilə, son dövrlərdə iqtisadi vəziyyətin dəyişməsi ilə hər iki valideynin işləyərək uşaqlardan ayrılması və uşaqların yetkinlərdən çox öz yaşıdları ilə zaman keçirməsinin nəticələri onun elmi istiqamətinin aparıcı hissəsinə çevrilmişdir. Neufeldin fikrincə, bir uşağın anası və ya bütünlükdə valideynləri ilə yaxınlıq qurmaq istəməsi valideynin ona rəhbərlik etməyini və düzgün formada tərbiyə olunmasını asanlaşdırır. Onun yanaşmasına əsasən müasir dövrdə insanlar uşaqların sosiallaşmasını başlıca hədəfə çevirirlər və uşaqlar davamlı olaraq bir oyun qrupundan digərinə yönəldilirlər, kiçik yaşdan bağçalara gedirlər və yaxınlıq anlayışı yaşıdlarla, dostlarla formalaşır. Bu isə, uşaqların valideynlərdən ayrılması və erkən “müstəqilliyi” ilə nəticələnir. Müasir dövrdə uşaqlar hələ valideynləri ilə bağlılıq münasibətlərini tamamlamamış yaşıdları ilə bağlılıq qurmağa yönəldilirlər. Neufeldə görə, yaşıdlarla və ya dostlarla bağlılıq anlayışı yoxdur və bağlanma ierarxik struktura malikdir. Neufeldin bu yanaşması müasir dövrdə valideyn-övlad münasibətlərini və bağlılıq anlayışını yeni bir baxış bucağından təhlil etməyə imkan verir.

**Açar sözlər:** *bağlılıq, sosiallaşma, bağlılıq obyekti, instikt, həmyaşıd.*

**DOİ:** 10.54414/OKBQ4361

## Giriş

Neufeld valideyn-övlad münasibətlərini təhlil edərkən müasir dövrdə bağlılıq münasibətlərinin əvvəlki dövrlərdən fərqləndiyi nəticəsinə gəlmişdir. Hansı ki, yaşlı nəsil müasir dövrdəki gənclərin öz dövrlərindən fərqli olaraq daha disiplinsiz və daha az dəyərlərə malik olduqlarını səsləndirir. Bu məsələ Neufeldin marağını cəlb etmişdir və belə nəticəyə gəlmişdir ki, müasir dövrdə də valideynlər övladlarını digər dövrlərdə olduğu kimi sevir, ancaq bu sevgini övladlarına doğru şəkildə ifadə edə bilmirlər. Koqnitiv informasiya olaraq valideynlik rolunun necə olmalı olduğunu bilirik və onu davranışımızda göstərmək üçün cəhdlər edirik. Lakin bəzi hallarda övladlarımıza səsimizin tonunu qaldıra və ya sərt davrana bilirik.

Müasir dövrdə valideynlərin uşaqların sosiallaşmasına və inkişafına göstərdiyi təsirlər sorğulanmağa başlanır. Hətta 1998-ci ildə Newsweek jurnalında “Valideynlər əhəmiyyətlidir mi?” adlı məqalə dərc olunmuşdur. Eyni il bir kitabda “Valideynliyin əhəmiyyəti həddindən çox şişirdilir” ideyası cəmiyyət tərəfindən diqqət çəkməyə başladı [8].

Neufeldin fikrincə, əgər övladlarımızla aramızda sağlam münasibət olsaydı valideynlərin uşaqlar üzərində niyə bu qədər çox əhəmiyyət kəsb etməsi müzakirə olunmazdı.

## Əsas hissə

Bağlılıq anlayışı bütün məməlilərin baza tələbatlarından biridir. Bağlanma sadə dildə desək, iki kütləni bir-birinə çəkən qüvvətdir. Psixoloji mənada bağlanma münasibətlərin və sosial funksionallığın bazasını təşkil edir. İnsanlar arasında yaxınlıq, bağ qurma şəklində özünü göstərir. Uşaqlar digər məməlilərdə olduğu kimi yaxınlıq və bağlılıq qurmaya ehtiyac hiss edirlər. Məsələn, ördək balalarını nəzərdən keçirsək görərik ki, ördək balaları yumurtadan çıxan kimi ana ördəyə möhürlənirlər və inkişaf edib müstəqillik qazanana kimi möhürlənmə davam edir. Ana ördəyin yoxluğunda bala ördəklər ən yaxın hərəkətli cismi izləməyə başlayırlar. Bu, bir insan, heyvan və ya mexaniki oyuncaq ola bilər. Lakin, bala ördək nəyə bağlanırsa bağlansın ana

ördəyin yetişdirə biləcəyi səviyyədə yetişməyəcək. Eynilə bəzən valideynlərin olmadığı təqdirdə uşaqlar yaxınlarındakı digər fərdlərə istiqamətlənirlər. Əvvəlki illərdə valideynlərin olmadığı təqdirdə uşağın yaxın qohumları bu boşluğu doldururdularsa, son dövrdə bu boşluğu yaşıdlar və ya dostlar doldurmağa başlamışdır. Neufeld uşağın digər uşaqlarla bağ qurmasını və ya dostlaşmasının əleyhinə deyil, sadəcə onun fikrincə, valideynlər uşaqlarla elə bağlılıq qurmalıdır ki, yaşıdlar və ya dostlar uşaqların bağlılıq obyektinə çevrilməsinlər [2].

Bağlanma varlığımızın özünü təşkil edir, lakin şüurumuzdan xeyli uzaqlaşmışdır. İnsan nə qədər dərinə enərsə şüurdan bir o qədər uzaqlaşar. Özümüzü ağıllı varlıqlar və ya Homo Sapiens adlandırırıq. Ancaq beynimizin düşünən hissəsi incə bir qatdan ibarətdir və beynimizin ən əsas funksiyalarından biri bağlanmadır. Bağlanma uşağın psixolji sağlamlığı üçün əvəzolunmazdır. Uşaqlarımız xarici dünyada yaşaya biləcək potensiala malik olmaq üçün fiziki olaraq ananın uşaqlığına bağlanmalıdır. Uşaqlarımız öz ayaqları üstdə sərbəst durana qədər, sərbəst qərarlar verənə qədər isə emosional olaraq bizə bağlanmalıdırlar [2].

Neufeld ana ilə uşaq arasındakı bağlılığın altı mərhələdən keçdiyini və bu mərhələrin hər birinin digərini tamamladığını qeyd edir:

1. I səviyyə "duyğular" səviyyəsində bağlılıqdır. Bağlılığın ilk yolu fiziki yaxınlıqdan keçir. Uşaqlar bağlılıq qurduğu obyekə eşitmə, görmə, hiss etmə ehtiyacı duyurlar. Bağlılıq obyekti ilə davamlı kontaktda olmaq istəyirlər. Əgər ana uşaqla kifayət qədər fiziki və emosional kontakta daxil olursa, məsələn, süd verirsə, danışırsa, öz hislərini uşaqla bölüşürsə, tələbatın yarandığı anda bu tələbat ödənirsə uşaq dünyanın onu sevdiyinə inanır.

Əgər ana itələyici və soyuqdursa, qucağına götürmürsə, ağladığı zaman tələbatlarını ödəmirsə, uşağa pozitiv reaksiya vermirsə o zaman uşaqda "dünya pisdir" informasiyası formalaşır. Fiziki yaxınlığa hiss etdiyimiz ehtiyac çağalıqda özünü daha aşkar biruzə versə də bu ehtiyac insanın bütün həyatı boyu özünü göstərir. İnsan psixoloji olaraq nə qədər az yetkinləşərsə bir o qədər fiziki təmasa daha çox ehtiyac duyar. Əksinə, mərhələ uğurlu başa çatmışsa uşaq ananın qucağından düşüb dünyanı tədqiq etməyə yönəlir.

2. Bu səviyyə "bənzərlik" səviyyəsi adlandırılır. Birinci səviyyə uğurlu tamamlanmışsa ikinci mərhələ üçün əlverişli şərait yaranır və bağlılıq dərinləşməyə başlayır. Bu mərhələdə bağlılıq instiktləri aktivləşərək "ana kimi/ ata kimi" davranmaq aktuallıq kəsb edir. Uşaq yaxınlıq hiss etdiyi insanlara bənzəməyə başlayır. Yaxın insanları təqlid edərək və ya onlara bənzəməyə çalışaraq eyni rolları icra etməyə başlayır. Bağlılığın bu mərhələsi uşaqların nitq qabiliyyətlərinin inkişafına və dəyərlərin ötürülməsində həmiyyətli rol oynayır. İkinci dünya müharibəsindən sonra uşaqların ortalama söz sayının azaldığı müşahidə olunur. Bunun səbəbi isə uşaqların danışdığı dilləri bir-birlərindən öyrənməsidir. Əgər uşaq yetkinlərdən ayrılıb davamlı olaraq uşaqlarla zamanını keçirirsə bu zaman necə danışmalı, yeriməli və davranmalı olduğunu öz yaşıdlarından öyrənir.

Oxşarlıq səviyyəsində bağlılıq effektiv təlim fəaliyyəti üçün də çox böyük əhəmiyyət daşıyır. Belə ki, uşaq nəyisə öyrənməyi, oxumağı o zaman sevir ki, ona bunu öyrədənə bağlı olsun.

3. "Aidlik və sədaqət" adlanan bu səviyyədə uşaq yaxınlıq qurduğu insanları sahiblənməyə və həmin insanların ona aid olduğunu düşünməyə başlayır. "Mənim" yiyəlik əvəzliyi həmin yaşda özünü aktiv şəkildə göstərir: "mənim oyuncağım", "mənim anam" və s. Bu mərhələdə uşağın nələrisə sahiblənməsi təmamilə normaldır və buna görə də uşağı öz oyuncaqlarını kimləsə paylaşmağa məcbur etmək olmaz.

Aidlikdən əlavə sədaqət də inkişaf etməyə başlayır və uşaqlar bağlı olduqları obyektə sadiq qalıb onların sözlərini dinləyirlər. Yaşıdlarına istiqamətlənmiş uşaqlar isə öz sirrlərini valideynlərindən gizlədir və bir-biri ilə paylaşır, bir-birlərinə dəstək olurlar. Bunun səbəbi yaşıdlarına istiqamətlənib bağlılıq instiktləri ilə hərəkət etmələridir.

4. "Əhəmiyyət kəsb etmək". Bu mərhələdə yaxınlıq və bağlılıq qurduğu obyektlərin gözündə əhəmiyyətli olmağa çalışır. İnsanlar dəyər verdikləri şeyləri yaxınlarında tutmaq istəyir. Biri ilə bağlılıq qurmuş uşaq böyük bir həvəslə bağlandığı insanı sevindirmək və məmnun etmək üçün cəhdlər edir. Davranışlarının bağlılıq

qurduğu obyekt tərəfindən dəstəklənmədiyini hiss etdiklərində bu, onlarda dərin kədərə səbəb olur. Bu mərhələdəki uşaqlar bağlılıq obyektlərinin üzünü güldürmək üçün çalışırlar. Məhz bu səviyyədə narsistik kompleks formalaşa bilər. Çünki uşaq valideynlərinin gözündə öz əhəmiyyətini itirməmək üçün özünü dəyişdirməyə çalışa bilər. Məsələn, "əgər mən ağıllı olsam məni sevəcəklər", "əgər mən gözəl olsam məni sevəcəklər" anlayışı yarana bilər. Bunun qarşını almaq üçün ana və ya digər bağlılıq obyektləri uşağın onlar üçün necə dəyərli olduğunu vurğulamalı və onu şərtsiz qəbul edib sevdiklərini davranışda da göstərməlidir. Ailə tərəfindən uşağa verilən bu dəyər uşağın özgüvənin əsasını təşkil edir.

5. "Hisslər". Bağlılığı formalalaşdırmağın beşinci mərhələsi hisslərdir. Bu mərhələdə uşaqda həqiqi sevməyə hazırlıq yaranır. Valideynlərlə emosional kontaktı dərinləşmiş uşaqlar fiziki ayrılığa tab gətirə bilsələr də bağlılıq obyektini yaxınlarında tutma ehtiyacı qüvvədədir. Sevgi bağları daha da dərinləşdiyi üçün uşaqlar bu hissi daha dərindən hiss etməyə başlayır və onlarda "sevən və sevilən valideyn" obrazı yaranır.

6. "Tanınma". Bağlılığın altıncı mərhələsi tanınmadan keçir. Bu mərhələnin ilk işarətləri özünü məktəb çağında göstərməyə başlayır. Uşaq bağlı olduğu obyektə hisslərini tam şəkildə ifadə etməyə başlayır. Öz sirrlərini bağlı olduğu obyektlə bölüşməyə başlayır. Bağlılığı valideynləri və ya digər yetkinlərlə formalaşmış uşaqlar sirr saxlamağı sevmirlər, çünki aralarındakı bağlılığı zədələməkdən ehtiyat edirlər. Əgər uşaq yaxınları tərəfindən tanınmış, olduğu kimi qəbul edilirsə, sevilirsə bağılılığı zədələyəcək bütün ehtimallardan uzaqlaşır [2].

Bütün uşaqlar xüsusilə də həmyaşıdlarına istiqamətlənmiş uşaqlar bağlanmanın bütün mərhələlərini uğurla tamamlaya bilməz. Həmyaşıdlarına yönəlmiş uşaqların yetkinləşmə ehtimalı çox aşağıdır. Bağlanmanın əsasını uşaqların bağlılıq qurduqları obyektlə eyniləşmə və ona bənzəmə təşkil edir. Buna görə də həmyaşıdlarına istiqamətlənmiş yeniyetmələr özlərini onlarla eyniləşdirir, onlar kimi danışır, hərəkət edirlər.

Uşaqlar digər bütün canlılar kimi anadangəlmə bağlanma instiktinə sahib olurlar. Düzgün həyat istiqamətlərini tapmaq üçün yetkinlərlə bağlılıq qurması xüsusi əhəmiyyət kəsb edir. Neufeld bağlılıq anlayışında uşaqları maqnitə bənzədir, necə ki, maqnit özlüyündən Şimal qütbünü göstərir uşaqlar da ona rəhbərlik edən avtoritetlik yaradan və onlarla sevgi dolu münasibət quran birinə istiqamətlənməyə ehtiyac duyurlar. Həyatlarında belə birinin olmaması onlar üçün kifayət qədər ağırdır. Belə olduğu təqdirdə onlar öz istiqamətlərini tapa bilmir və bu onlarda boşluğun yaranması ilə nəticələnir. Və yaxud da əgər uşaqların istiqamətləndiyi şəxslər valideynlər və ya digər yetkinlər deyilsə, onların əvəzinə düzgün sosiallaşmama nəticəsində digər uşaqlara istiqamətlənmişlərsə bu zaman səhv yola istiqamətlənmiş hesab olunurlar. Bunun nəticəsində uşaqlar yetkinlər tərəfindən idarə oluna bilmirlər, təlimə qarşı çıxırlar, çünki artıq yetkinlərdən öyrənmirlər. Müasir dövrdəki ağır həqiqətlərdən biri odur ki, uşaqlar artıq bir-birlərini yetişdirirlər [2].

Uşaqların həm yetkinlər həm də digər uşaqlar tərəfindən istiqamətləndirilməsi isə mümkünsüzdür. Bir insan eyni anda iki fərqli təlimatı yerinə yetirə bilməz. Çünki uşaqların bir-birinə ötürdüyü dəyərlərlə valideynlərin onlara ötürdüyü dəyərlər kəskin fərqlənir və uşaqlar kimlə bağlılıq qurursa həmin şəxsin dəyərlərini qəbul edir və özününküləşdirirlər.

Dəyərlər, mədəniyyət hər zaman ierarxik şəkildə nəsildən nəslə ötürülür. Yetkinlər hər zaman öz valideynlərindən aldığı dəyərləri miras olaraq özündən sonrakı nəslə ötürür. Lakin uşaqların "sosiallaşma"sı nəticəsində artıq dəyərlər yetkinlərdən uşaqlara deyil, uşaqlardan uşaqlara mənimsədilir. Bu halda mədəniyyət, adət-ənənələr şaquli formada deyil, üfüqi formada köçürülür.

Hər mədəniyyətin özünə xas adət-ənənələri, musiqiləri, geyim tərzi, bayramları olur. Müasir dövrdə artıq uşaqların gənclərin dinlədiyi musiqilər belə yaşlı nəsildən xeyli fərqlənir. Geyim tərzlərini öz ailələrindəki dəyərlərə uyğun deyil, yaşıdlarının geyim tərzlərinə uyğun seçirlər. Digər acı həqiqət isə bütün bunların artıq hamımıza normal gəlməsidir, çünki cəmiyyət olaraq hamımız öz yaşıdlarımıza istiqamətlənmişik.

Britaniyalı uşaq psixoloqu Michael Rutter və kriminologiya mütəxəssisi David Smithin geniş araşdırmalarına görə, bu gənclik mədəniyyəti İkinci Dünya Müharibəsindən sonra yaranmağa başladı. Bu, 20-ci yüzilliyin ən dramatik və narahatedici hadisəsidir. Belə ki, on altı ölkənin

mütəxəsislərinin də iştirak etdiyi bu araşdırmanın nəticəsində məlum oldu ki, antisosial davranışlarda görülən artım ilə mədəniyyətin üfüqi ötürülməsi arasında ciddi bir əlaqə var. Yetkin mədəniyyətinin dəyərlərindən fərqli olan bu yeni mədəniyyət uşaq, gənc cinayətlərinin şiddətinin sayının artmağına səbəb olur [3].

Keçmiş dövrlərdə insanlar kim olmaq istədiklərini, nə etməli olduqlarını öyrənmək üçün özlərini bağlılıq qurduqları yetkin insanlarla identifikasiya edirdilər. İndi isə uşaqlar sosialaşma adı ilə yaşıdlarına elə istiqamətlədiriliblər ki, onlar kim olduqlarını və kim olmaq istədiklərini həmyaşıdlarından öyrənirlər [3].

Cəmiyyətimizdə həmyaşıdlara istiqamətlənmənin artışı ilə uşaq intiharları da xeyli artmışdır. Şimali Amerikada aparıla araşdırmalara görə son 50 ildə on ilə on dörd yaş arasındakı uşaq intiharları dörd dəfə artmışdır. Ən çox intihar edən uşaq qrupu məhz bu yaş aralığını əhatə edir. 1980-1988-ci illərdə bu yaş qrupuna daxil olan uşaq intiharları yüzdə 120 nisbətində artım özünü göstərir. Bağlılıqlarını valideynləri ilə deyil də həmyaşıdları ilə quran uşaqların daha çox olduğu şəhər mərkəzlərində isə bu artım daha çox diqqət cəlb edir [4]. Uşaq intiharlarının səbəblərini araşdırdıqda isə nəticələr böyük təəccüb doğurur. Uşaqların həmyaşıdları tərəfindən bullinqə məruz qalması və bu kimi halların intihara səbəb olduğuna aid çoxsaylı faktlar mövcuddur. Uşaqlar nə qədər çox həmyaşıdlarına bağlanarsa belə halda həmyaşıdların həssas yanaşmaması, şiddət göstərməsi onlar üçün böyük məyusluq yaradar.

Müasir dövrdə yayılmış bu gənclik mədəniyyətinə qarşı mübarizə aparmaq xeyli çətinləşmişdir, hansı ki, Yaponiya öz milli dəyərlərini, adət ənənələrini uzun əsrlər qorumağına baxmayaraq yeni mədəniyyətə qarşı mübarizə apara bilməmişdir. Bu ölkədəki uşaqlar qısa bir müddətə qədər heç bir cinayi əməl törətmir, məktəbdə düzgün davranışlar sərgiləyir, heç bir halda qanunlara qarşı gəlmirdilər. Lakin son dövrlərdə həmyaşıdlara istiqamətlənmə bu ölkədə də xeyli artmış, intihar və cinayi davranışlar özünü göstərməyə başlamışdı. Harpers jurnalı bir müddət əvvəl Yaponiyada intihar məktublarını incələmiş və bu faktı irəli sürmüşdü: Məktubların əksəriyyətində uşaqlar intihar səbəbi olaraq öz həmyaşıdlarının onlara qarşı kobud davranışlar göstərməsi və onların buna dözə bilmədiyini ifadə edirlər. [5]

Həmyaşıdlara istiqamətlənməyin ən bariz nümünəsi özünü daha çox yeniyemələk yaşlarında göstərsə də ibtidai sinifdə də bunun ilkin əlamətlərini görə bilərik. Buna görə də valideynlər uşaqlarını daha diqqətli izləməli və bağlılıq münasibətlərini qorumağı bacarmalıdır.

Uşaqların həmyaşıdlara yönəlməsi haqqında ilk araşdırma təxmini 40 il əvvəl baş tuttdu. Dr.James Coleman yeddi min gənc üzərində araşdırma apararaq belə bir fakt irəli sürdü ki, uşaqlar dostluq münasibətlərinə valideynlə münasibətlərindən daha artıq dəyər verirlər. Və Coleman bu dəyişimin Amerikada yayılacağından xeyli narahat idi. Lakin digər mütəxəssislər bu məsələyə şübhə ilə yanaşdılar və bu vəziyyətin Çixaqo üçün keçərli olduğuna inandılar [6].

Neufeldin bu yanaşması valideynlərdə belə bir sual yaratdı: "Uşaqlarımıza sərbəstlik verməməliyik?", "Uşaqlarımızın müstəqil yaşamağı öyrənməsi əhəmiyyətli deyil?".

Neufeldin suallara cavabı isə belədir: "Əlbəttə, uşaqlarımız müstəqil yaşamağı öyrənməlidir, lakin bu yalnız valideynlik vəzifələrimizi tamamladıqdan, uşaqlarla düzgün bağlılıq yaratdıqdan və uşaqlarımız sərbəst qərarlar vermə potensialına malik olduqdan sonra mümkündür". [2]

Neufeldə verilən digər bir sual uşaqların həm valideynlərinə, həm də həmyaşıdlarına bağlanmasının mümkünlüyü ilə əlaqəlidir. Neufeldə görə bu arzuolunan bir vəziyyətdir, lakin münasibətlər elə qurulmalıdır ki, uşağın valideynləri ilə münasibəti və dostları ilə münasibəti rəqabət içində olmasın. Rəqabətin olduğu halda uşaq bu iki fərqli bağlılıq obyektlərindən birini seçməlidir. Əgər kompas eyni anda iki fərqli yol göstərsəydi bu zaman insan öz yolunu tapa bilməkdə çətinlik çəkərdi. Eynilə yolunu tapmaq üçün həm yaşıdlarını, həm də yetkinləri izləyən uşaqlar bu məsələdə uğurlu ola bilməz. Uşaqlar ya valideynlərinin dəyərlərini, ya da həmyaşıdlarının dəyərlərini qəbul edərək müəyyən bir yola çıxa bilərlər, ikisi eyni anda təəssüf ki, mümkün deyil. Şimal qütbünə nə qədər çox yaxınlaşsanız Cənub qütbündən bir o qədər uzaqlaşarsınız. Əgər eyni anda iki fərqli istiqamətə bağlanmaq mümkün olsaydı bu halda uşağın duyğuları qarışa və inkişaf potensialı azala bilər [2]

Müasir dövrdə diqqət cəlb edən əsas məsələlərdən biri də uşaqlarının əksəriyyətində inkişaf çətinliklərinin yaranmasıdır. İnkişaf yalnız orqanizmin mühitlə qarşılıqlı əlaqəsində öz əksini tapır. Uşağın psixi inkişafı həyatın ilk aylarından başlayaraq onun sosial həyat şəraiti ilə qarşılıqlı əlaqədə təşəkkül tapır. Uşaq sosial münasibətlər sistemindən uzaqlaşdırılarsa, uşaq fizioloji olaraq inkişaf etsə də psixoloji və ya sözün əsl mənasında şəxsiyyət kimi inkişaf edə bilməz [1]. Neufeld bu məsələdə bağlılıq obyektinin rolunun yüksək qiymətləndirir. Onun fikrincə, uşağın yetkin şəxslərlə bağlılıq qura bilməməsi inkişafda ləngimə yarada bilər. Qeyd olunduğu kimi, uşaqlarda bağlanma boşluğu müəyyən çətinliklərin yaranmasına gətirib çıxarır. Bəzən valideynlər bunun səbəblərini özlərində deyil, uşaqlarda axtarmağa başlayırlar və bu nitqlərində davranışlarında özünü açıq şəkildə biruzə verir. Məsələn: “niyə bu qədər inadkarsan?” “niyə diqqətli olmursan?” və s. Müasir dövrdə valideynlər uşaqlarının çətinliklərini aydınlaşdırmaq üçün müəyyən “etiketlər” axtarmağa başlayırlar. Valideynlər uşaqlarına mütəxəssislər tərəfindən bir diaqnoz qoyulması üçün mübarizə aparırlar. Son dövrlərdə diqqət əksikliyi və hiperaktivlik sindromunun uşaqlar arasında bu qədər çox artım göstərməsi heç də təsadüfi deyil. Uşaqlarda hər hansı bir diaqnozun qoyulması valideynin məsuliyyət yükünü azaldır və sanki “bütün problem uşaqdadır” şəklində davranmağa başlayırlar [2].

Amerikalı şair Robert Bly “The sibling Society” adlı kitabında uşaqların həmyaşıdlarına istiqamətlənməsinin bir çox nümunələrini göstərmişdir. O, ayrıca olaraq bu məsələni araşdırmasa da gündəlik həyatda rastlaşdığı nümunələri insanlara göstərməyə çalışmışdır. Onun fikrincə, ailələr artıq birlikdə yemək yemir, söhbət etmir və kitab oxumurlar. [7]

Uşaqların bağlılıq və sosiallaşmasına təsir edən digər amil isə qohumluq əlaqələrinin zəifləməsidir. Nuklear ailələrin artması, qohumluq əlaqələrinin zəifləməsi bağlanma boşluğu yaratmışdır. Mədəniyyət eyni yerdə yaşayan insanlar tərəfindən nəsildən-nəslə ötürülür. Artıq insanlar eyni yerdə yaşamadıqları, tez-tez məkan dəyişdirdikləri üçün anonim xüsusiyyət daşımağa başlayıblar. Müasir dövrdə uşaqların yaşlılarla əlaqələri əhəmiyyətli dərəcədə azalmış və bu nəsildən-nəslə ötürülən dəyərlərin yox olmasına gətirib çıxarmışdır.

Cəmiyyətin əsasını təşkil edən nuklear ailələrin dağılması da son dövrlərdə artmışdır. Boşanma uşaqlarda bağlanma boşluqları yaradır. Uşaqlar bağlandıqları şəxslərin hər birinin eyni məkanda və eyni fiziki yaxınlıqda olmaqlarını istəyirlər. Nisbətən yetkinləşmiş və valideynləri ilə daha yaxşı bağ quran uşaqlar boşanmağa daha adekvat reaksiya verə bilir, ikisi ilə də emosional yaxınlığı qoruya bilir, ikisinə birdən aid olur. Lakin bir çox uşaq bunu bacara bilmir. Buna səbəb valideynlərin bir-biri ilə rəqabətə girməsi və uşaqlarını çətin vəziyyətdə qoymalarıdır. Əksər hallarda uşaq bir valideyninə fiziki və emosional cəhətdən yaxınlaşdıqda digəri ilə fiziki və emosional cəhətdən ayrılmalı olur.

Bir-birlərini rəqib kimi görən valideynlər yeni biri ilə ailə qurduqları zaman konflikt daha da kəskinləşir və bu halda uşaq digər valideynləri ilə bağlarını qoparmamaq üçün ögey ana və atanı təcrid edir.

Məsələnin bu qədər konflikt kəsb etməsinin səbəbi uşağın valideynləri ilə sağlam bağlılıq münasibətləri qura bilməməsidir. Boşanma ərəfəsində olan valideynlər bir-birləri ilə münasibətlərinə o qədər fokuslaşırlar ki, uşaqlarda emosional boşluq yaranır və bu emosional boşluğu doldurma üçün öz yaşıdlarına yönəlirlər. Valideynləri boşanmış uşaqlar üzərində aparılan araşdırmalar göstərir ki belə konfliktli ailələrin uşaqlarında məktəbdə davranış çətinlikləri və şiddət meyli özünü göstərir. Belə uşaqların davranış çətinliklərin olması çox yüksək ehtimaldır. Bu o demək deyil ki, valideynlər problemli evliliklərini davam etdirməlidir. Lakin valideynlər boşanma mərhələsində uşaqlara necə böyük bir təsir göstərdiklərinin fərqində olmalıdır. Boşanma mərhələsində valideynlik vəzifələrini azaltmaq üçün uşaqlarımızı digər uşaqlara itələmək əvəzinə onlarda yarana biləcək boşluğu doldurmaq üçün yaxın qohumlardan dəstək ala bilərik.

Cəmiyyətdə iqtisadi vəziyyət də əvvəlki dövrlərə nisbətən dəyişmişdir. Otuz və ya qırx il əvvəl bir ailə üzvünün işləməsi ailənin yaşayış standartlarını ödəməyə imkan verirdi, müasir dövrdə isə eyni yaşayış standartlarını ödəmək üçün hər iki valideynin işləməsi zəruriyyətə çevrilib. Buna görə də müasir dövrdə valideynlər

uşaqları ilə sağlam bağlılığa tam nail olmamış onları yaşıdlarına itələyirlər, çünki valideynlərin uşaqlarla keçmiş dövrlərdə olduğu kimi vaxtları və enerjiləri yoxdur.

Əgər bağlılıq olmasaydı valideynlər valideynlik vəzifələrini yerinə yetirməkdə uğurlu ola bilməzdi: məsələn bir ana uşağın altını dəyişməkdən iyrənərdi, yuxu rejimlərini uşaqlara görə poza bilməzdi, uşaqların səs-küyünə dayana bilməzdi və bir çox valideynlik vəzifələri icra etməkdən imtina edərdi. Bağlanma həm də uşaqların sevimli olmasını təmin edir. Valideynliklə əlaqəli çətinliklərə tab gətirə bilməyimizə və yaranan çətinlikləri səbrlə aradan qaldırmağa köməklik edir. Bir körpənin bağlanma davranışından daha simpatik heçnə yoxdur: üzərinizdən ayrılmayan gözlər, gülümsəmə, sizə uzanan əllər, davamlı sizi qucaqlaması və s. Bağlılıq davranışları içimizdəki valideynlik instiktlərini oyadır. Bu davranışlar içimizdəki valideynlik instiktlərini oyadarsa körpəmizə yaxınlaşmaq və onu qollarımızda tutmaq istəyimizi və onunla bağlı bütün məsuliyyətləri öhdəmizə götürdüyümüzü hiss edərik [2].

Belə davranışlar uşaq böyüdükcə azala bilər, lakin valideynlə uşaq arasında bağlılıq qüvvətlidirsə bu təsir uşaq böyüdükdə və cəmiyyətə adaptasiya olub sosiallaşdıqda belə davam edir.

**Nəticə**

Son olaraq onu deyə bilərik ki, bağlılıq uşağın psixoloji sağlamlığı üçün əvəz olunmaz əhəmiyyətə malikdir. Bağlılığın valideynlərlə sağlam şəkildə formalaşması həm uşaq inkişafına, həm də münasibətlər sisteminə müsbət təsir edir. Bağlılığı sağlam formalaşdırmaq üçün valideynlər "günəş" rolunu oynamalı və uşaqlar onların ətrafında fırlanmalıdır. Əksinə, uşaqların həmyaşıdlarına və ya dostlarına yönəlməsi onların səhv istiqamətdə formalaşması, dəyərlərin, adət-ənənələrin təhrif olunması və ya aradan qaldırılması ilə nəticələnir. Bu isə müasir dövrdə valiseyn-övlad münasibətlərindəki çətinliklərin yaranmasına səbəb olur.

**ƏDƏBİYYAT SIYAHISI:**

1. Əliyev B. H. Şəxsiyyətə yeni baxış nəzəriyyəsi. Bakı, 2008.
2. Neufeld. G. Çocuklarınıza tutunun. Kanada, 2004.
3. Rutter. M and Smith. David. Psychosocial Disorders in Young People: Time Trends and Their Causes, Wiley. J and Sons. New York, 1995.
4. Bronfenbrenner. U. The Challenges of Social Change to Public Policy and Development Research. Denver, Kolorado, 1975.
5. Harper's. Dekabr, 2003.
6. Coleman. J. The Adolescent Society, Free press. New York, 1961.
7. Bly. Robert. The Sibling Society. New York, 1977.
8. Harris. J. The Nature Assumption, Simon&Schuster. New York, 1999.

**Илаха Фарзали кызы САФАРОВА**
Магистр кафедры педагогики, психологии и социологии
Западно-Каспийского университета
E-mail: ilahsfrova@gmail.com

## ПОДХОД НЕЙФЕЛЬДА К ОТНОШЕНИЮ ПРИВЯЗАННОСТИ И СОЦИАЛИЗАЦИИ

**Резюме**

Роль семьи незаменима в социализации ребенка и социальных отношениях. Если ребенок установил здоровые отношения привязанности со своими родителями, это оказывает значительное влияние на его социальные отношения. Гордон Нойфельд анализирует исследования роли привязанности в отношениях детей с обществом и роли привязанности в жизни ребенка и находит интересные результаты. В частности, с изменением экономической

ситуации в последнее время ведущей частью его научного направления стали последствия того, что как родители работают и разлучаются со своими детьми, так и дети, проводящие больше времени со сверстниками, чем со взрослыми. По словам Нойфельда, желание ребенка сблизиться со своей матерью или со своими родителями в целом облегчает родителю возможность направлять его и правильно воспитывать. Согласно его подходу, в современное время люди делают главной целью социализацию детей, а детей постоянно направляют из одной игровой группы в другую, с раннего возраста они идут в детский сад, формируется понятие близости со сверстниками и друзьями. Это приводит к отделению детей от родителей и ранней «самостоятельности». В наше время детей заставляют сближаться со сверстниками до того, как они сблизятся со своими родителями. Согласно Нойфельду, понятия привязанности к сверстникам или друзьям не существует, а привязанность имеет иерархическую структуру. Подход Нойфельда позволяет нам анализировать детско-родительские отношения и концепцию привязанности с новой точки зрения в наше время.

**Ключевые слова:** привязанность, объект привязанности, социализация, инстинкт, вглядеться.

**Ilaha Farzali SAFAROVA**
Master's degree of the Department of Pedagogy,
Psychology and Sociology of the Western Caspian University
Email: ilahsfrova@gmail.com

## NEUFELD'S APPROACH TO THE RELATIONSHIP BETWEEN ATTACHMENT AND SOCIALIZATION

### Resume

The role of the family is irreplaceable in the child's socialization and social relations. If a child has established a healthy attachment relationship with his parents, this significantly impacts his social relationships. Gordon Neufeld analyzes research on the role of attachment in children's relationship with society and attachment in a child's life and finds interesting results. In particular, with the recent economic change in the economic situation, the consequences of both parents working and separating from their children and children spending more time with their peers than with adults have become the leading part of his scientific direction. According to Neufeld, a child's desire to bond with his mother, or parents as a whole, makes it easier for the parent to guide him and nurture him in the right way. According to his approach, in modern times, people make the socialization of children the main goal, and children are constantly directed from one playgroup to another, they start kindergarten from a young age, and the concept of closeness is formed with peers and friends.

This results in the separation of children from their parents and early "independence". In modern times, children are pushed to bond with their peers before they have completed bonding with their parents. According to Neufeld, there is no concept of attachment to peers or friends, and attachment has a hierarchical structure. Neufeld's approach allows us to analyze parent-child relationships and the concept of attachment from a new perspective in modern times.

**Keywords:** attachment, the object of attachment, socialization, instinct, peer.

**Daxil olub:** 18.09.2022
**Access date**